2024

AZƏRBAYCAN SIĞORTAÇILAR ASSOSİASİYASI

# Bülleten
# MAY

## Mərkəzi Bankın sədri ilə sığortaçıların növbəti görüşü keçirilib



Azərbaycan Respublikasının Mərkəzi Bankının sədri Taleh Kazımov ilə sığorta şirkətlərinin rəhbərləri arasında növbəti görüş keçirilib. Görüş zamanı cari ilin birinci rübünün nəticələri və sektorun inkişaf perspektivləri müzakirə edilib. Görüşdə həmçinin sektorun strateji prioritet və hədəfləri, bu çərçivədə həyata keçirilən təşəbbüslər, eləcə də istehlakçıların hüquqlarının müdafiəsinin gücləndirilməsi kimi mühüm məsələlər üzrə müzakirələr aparılıb.

## Sığorta şirkətlərinin rəhbər işçiləri üçün təlim keçirilib



Azərbaycan Respublikasının Mərkəzi Bankı və Azərbaycan Sığortaçılar Assosiasiyasının birgə təşkilatçılığı ilə sığorta şirkətlərinin rəhbər işçiləri üçün "Sığorta şirkətlərində biznes strategiyanın yaradılması və tətbiq olunması" mövzusunda təlim keçirilib. Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

## ASA Fəxri Xiyabanı ziyarət edib





10 May müasir və müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü günü ilə əlaqədar olaraq, Azərbaycan Sığortaçılar Assosiasiyasının rəhbərliyi və kollektivi Fəxri Xiyabanda Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edərək, məzarı önünə gül dəstələri qoyublar. Daha sonra ASA kollektivi Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın əziz xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoyublar.

## ASA jurnalistlər arasında yazı müsabiqəsi elan edib

"Risklərin təminat altına alınmasında həyat sığortalarının rolu" mövzusunda elan edilən bu yazı müsabiqəsində I, II və III yerləri tutan jurnalistlərə müvafiq olaraq 1500, 1000, 750 AZN məbləğində pul mükafatları və sertifikatlar, o cümlədən IV və V yerləri tutan jurnalistlərə isə dəyərləndirici mükafatlar təqdim olunacaq. ASA-nın hər il ənənəvi olaraq elan etdiyi bu yazı müsabiqələri ölkəmizdə sığorta savadlılığının artırılmasına, cəmiyyətdə sığortaya marağın formalaşdırılmasına töhfə vermək məqsədilə keçirilir.

## ASA Türk Dövlətləri İqtisadi Forumunda iştirak edib

TDT-KOBİA tərəfdaşlığı və Françayzinq Assosiasiyası ilə KOBSKA-nın birgə təşkilatçılığı ilə "Türk Dövlətləri İqtisadi Forumu – 2024" keçirilib. ASA-nın rəhbərliyi və üzvlərinin iştirak etdiyi və Türkdilli ölkələr arasında ilk dəfə keçirilən tədbir, bu ölkələr arasında mövcud bazar və investisiya imkanlarının öyrənilməsi, markaların beynəlxalq mühitə inteqrasiyasının təşkili, şirkətlərarası kommersiya münasibətlərinin inkişaf etdirilməsi, xarici investor və şirkətlərin ölkəyə cəlb olunmasına dəstək, türkdilli ölkələr arasında münasibətlərin gücləndirilməsi məqsədi daşıyıb.



## ASA Beynəlxalq İqtisadi Elmi konfransda iştirak edib



Azərbaycan Dövlət İqtisad Universitetinin "Dayanıqlı inkişafın yeni dövrü: Yaşıl transformasiya və İqlim maliyyələşdirilməsi" mövzusunda təşkil etdiyi VI İqtisadiyyat və İdarəetmə sahəsində Tədqiqatçıların Beynəlxal Elmi Konfransı keçirilib. ASA-nın da dəvətli olduğu konfransda  Elm və Təhsil naziri Emin Əmrullayev, dövlət qurumlarının rəsmiləri, Milli Məclisin deputatları, yerli və çox sayda xarici ölkənin iqtisadçıları iştirak ediblər.

## ASA "İllik Mühasiblər Forumu - 2024"-də

Sumqayıt Dövlət Universiteti və Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyasının birgə təşkilatçılığı ilə "İllik Mühasiblər Forumu - 2024" keçirilib. Azərbaycan Sığortaçılar Assosiasiyasının da dəvətli olduğu Forumda ictimai və elm xadimləri, müxtəlif ictimai birliklərin təmsilçiləri də iştirak ediblər.



# Azərbaycanda ilk dəfə regional sığorta forumu keçirildi



Azərbaycanda ilk dəfə Naxçıvan şəhərində "I Regional Sığorta Forumu" keçirilib.

Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş sığorta forumu Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Azərbaycan Respublikasının Mərkəzi Bankı və Azərbaycan Sığortaçılar Assosiasiyasının birgə təşkilatçılığı ilə baş tutub. Forum təşkilatçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edərək əziz xatirəsini yad edib, Heydər Əliyev Muzeyi ilə tanış olublar. Daha sonra Forumda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikasının Mərkəzi Bankının Baş direktoru Ziya Əliyev, İcbari Sığorta Bürosunun İcraçı direktoru Rəşad Əhmədov, Azərbaycan Sığortaçılar Assosiasiyasının İcraçı direktoru Elmar Mirsalayev və Azərbaycan Respublikasının Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Elçin Əliyev açılış nitqləri ilə çıxış edərək Forumun əhəmiyyətinə və regionlarda sığortanın vacibliyinə toxunublar.

Forum çərçivəsində Naxçıvan Muxtar Respublikasında nümayəndəliyi fəaliyyət göstərən sığorta şirkətlərinin iştirakı ilə panel müzakirələr baş tutub. Belə ki, "Ateşgah" Sığorta Şirkətinin Mühüm müştərilərlə iş şöbəsinin müdiri Vüqar Hüseynlinin təqdimatında "Sığortada hadisələrin tənzimlənməsi" mövzusu, "Azsığorta" şirkətinin Naxçıvan filialının direktoru Eldəniz İmanovun təqdimatında "Risklərin idarə edilməsində sığortanın rolu: Niyə sığortalanmalıyıq?" mövzusu, "Qala Sığorta" şirkətinin Nümayəndəliklərin idarəedilməsi departamentinin müdiri İlham Rzayevin təqdimatında "Regionun riskləri: Hansı sığorta növlərinə müraciət edilməlidir?" mövzusu, "PAŞA Sığorta" şirkətinin Rəqəmsal və Pərakəndə Biznes Blokunun rəhbəri Nuranə Teymurovanın təqdimatında "Sığorta xidmətlərinə əlçatanlıqda elektron vasitələrin yaratdığı üstünlüklər" mövzusu və "PAŞA Həyat Sığorta" şirkətinin Müştəri xidmətləri və sığorta hadisələrinin tənzimlənməsi departamentinin direktoru Orxan Mehdiyevin təqdimatında "Həyat riskləri və həyat sığortaları: Necə faydalanmaq olar?" mövzusu üzrə təqdimatlar nümayiş olunub, çıxışlar edilib. Daha sonra panel iştirakçıları Naxçıvanda fəaliyyət göstərən sahibkarların suallarını cavablandırıblar.

# Mərkəzi Bank tərəfindən həyat sığortası sahəsinə yeni tənzimləyici qaydalar gətirilib

Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinin 2024-cü il 16 may tarixli qərarı ilə "Fiziki şəxslərə təqdim edilən kredit müqavilələri üzrə borcalanın həyatının ölüm halından və əmək qabiliyyətinin itirilməsi hallarından sığortası Qaydaları"na və "Banklarda kredit risklərinin idarə edilməsi Qaydası"na əlavə və düzəlişlər təsdiq edilib.

Yeni qaydalara əsasən, sığorta müqavilələri üzrə sığorta təminatının müddəti kreditin qalan müddətinə bərabər olmalıdır. Sığorta məbləği isə sabit və ya azalan olmasından asılı olmayaraq, minimum borcalanın kredit təşkilatı qarşısında olan faktiki borc məbləği həddində, maksimum isə tərəflərin qarşılıqlı razılığı ilə həmin borc məbləğinin 110%-i həcmində müəyyənləşdirilməlidir. Bu, borcalanın kredit təşkilatı qarşısında olan kreditin ödəniş qrafikinə uyğun faktiki borc, sığorta hadisəsindən sonra yarana biləcək əlavə faiz və ya dəbbə pulu kimi öhdəliklərinin bağlanmasını təmin edəcəkdir. Həmçinin yeni qaydanın tətbiqi ilə istehlak krediti götürən şəxslər üçün bir sıra tənzimləyici yumşalmalar müəyyən edilib. Belə ki, bu yumşalmalar istehlak kreditinin həcmindən asılı olaraq sığortalanmanın operativliyini təmin etmək, o cümlədən bankdaxili kredit verilməsi üzrə prosedurların əlavə vaxt itkisinə səbəb olmasının qarşısını almaq məqsədi daşıyır. Bundan əlavə, borcalan tərəfindən sığortalanma haqqında ərizə olmadan sığorta müqaviləsinin bağlanması imkanı da yaradılıb.

Qaydalarda əksini tapan digər mühüm dəyişikliklər isə əlilliyi olan şəxslərin sığorta müqaviləsi bağlamaları ilə bağlı meydana çıxan maneələrin aradan qaldırılması və onların kredit müqavilələrinə əlçatanlığının təmin edilməsi olub. Əlilliyə və ya mövcud əllilik dərəcəsinin digər yuxarı dərəcə ilə əvəzlənməsinə səbəb olan sığorta hadisəsi zamanı borcalanın kredit müqaviləsi üzrə qalıq borc məbləğinin həcmi nəzərə alınmaqla, onun sağlamlıq imkanlarının pozulması faizinə uyğun həcmdə ödəniş verilməsi nəzərdə tutulub.

Qaydalardakı yeni tələblərdən biri də sığorta şirkətlərinə qarşı borcalanla bağlanmış sığorta müqaviləsinin mövcudluğunu borcalan və ya onun yaxınlarının yoxlamasına imkan verən elektron sistemin qurulması tələbidir. Bu tələb sığortalanmanın mövcudluğunun asanlıqla müəyyən edilməsinə və daha operativ qaydada sığorta hadisəsinin tənzimlənməsinə xidmət edir.

Banklarda kredit risklərinin idarə edilməsinə dair mövcud qaydaya gətirilmiş yeni tələblərdən biri isə bank müştərilərinə istehlak kreditlərini təqdim etdiyi zaman ona paralel olaraq borcalanın həyatının ölüm və əmək qabiliyyətinin itirilməsi hallarından sığorta müqaviləsinin də bağlanmasını təklif etməsidir. Yeni tələbə əsasən, banklar tərəfindən müştərilərə müvafiq sığorta təminatını könüllü qaydada alması ilə bağlı ərizə forması təqdim ediləcək. Müvafiq ərizə formasına əsasən, müştəri həyat sığortası üzrə lisenziyası olan sığortaçılardan birinin xidmətini sərbəst qaydada seçə biləcək.

Mərkəzi Bank tərəfindən təsdiqlənmiş yeni qaydalar istehlak krediti götürən şəxslərin həyat risklərinə qarşı müdafiəsinin gücləndirilməsinə, kreditləşmə və sığortalama sahəsində istehlakçılarla banklar və sığortaçılar arasında mübahisələrin azaldılmasına, istehlakçıların bu sahədə hüquqlarının müdafiəsinin daha da gücləndirilməsinə xidmət edir.

## Insurance Europe-un yeni prezidenti bəlli oldu



AXA Group-un icraçı direktor müavini Frederik de Kurtua Insurance Europe-un prezidenti seçilib. Kurtua qarşıdakı 3 il ərzində Avropa sığorta və təkrarsığorta assosiasiyaları federasiyasına rəhbərlik edəcək.

Kurtua Helsinkidə keçirilən 14-cü Beynəlxalq Konfransdakı çıxışında deyib: "Mənim əsas prioritetim daha yaxşı və daha rəqabətli Avropanın qurulmasına töhfə vermək olacaq. Sığorta sənayesi xidmətləri həllin bir hissəsidir. Düzgün həlləri inkişaf etdirmək və birgə formalaşdırmaq üçün bütün maraqlı tərəflərlə konstruktiv işləməyə hazırıq."

## Dünyada əmlak sığortalarına əlçatanlıq azalıb



Sığorta Araşdırmaları Şurasının (IRC) son hesabatına görə, təbii fəlakətlərin tezliyi və şiddəti, iqtisadi şərait və artan tikinti xərcləri nəticəsiəndə son 20 ildə daşınmaz əmlak sığortası tariflərinin artması bu sığorta növünə əlçatanlığın azalmasına səbəb olub. IRC-nin hesabatına görə, 2000-ci illərdə əmlak sahibləri gəlirlərinin 1,54%-ni sığortaya xərcləyirdisə bu rəqəm 2010-cu illərdə orta hesabla 1,99% səviyyəsinə yüksəlmişdi və 2021-ci ildə isə əmlak sığortasına ayırmalar sadəcə 5,0% artıb.

## Təbii fəlakətlərin 2024-cü ilin birinci rübündə yaratdığı iqtisadi itki açıqlanıb



Aon tərəfindən ənənəvi olaraq Qlobal Təbii Fəlakətlər Hesabatı dərc edilib. Adıçəkilən hesabata görə, 2024-cü ilin birinci rübündə baş verən böyük təbii fəlakətlərin yaratdığı ümumi iqtisadi itki 45 milyard dolları keçib. Hesabat qeyd olunur ki, qlobal sığorta itkiləri isə ən azı 17 milyard dollara çata bilər.

## Türk Dünyası Sığorta Birliyinin təsis edildiyi gündən 2 il ötür




Azərbaycan Sığortaçılar Assosiasiyası ilə Türkiyə Sığorta Birliyi arasında əldə olunmuş ortaq razılıq və birgə təşəbbüs nəticəsində 2022-cü ilin 24 may tarixində Türkiyənin İstanbul şəhərində təşkil olunmuş Beynəlxalq Sığorta Zirvəsində Türk Dünyası Sığorta Birliyi təsis edilib.

Azərbaycan Sığortaçılar Assosiasiyası, Türkiyə Sığorta Birliyi, Özbəkistan Peşəkar Sığorta Bazarı İştirakçıları Assosiasiyası, Qazaxıstan Sığortaçılar Assosiasiyası və Qırğızıstan Sığortaçılar Assosiasiyasının üzvlüyü ilə təsis edilən Türk Dünyası Sığorta Birliyi tarixdə ilk dəfə türk dövlətlərinin sığorta sənayeləri arasında əməkdaşlıq platforması oldu.

Türk Dünyası Sığorta Birliyinin başlıca məqsədi türk dövlətlərinin sığorta bazarları arasında təcrübə, kadr və məlumat mübadiləsinin təşkil olunması, təkrarsığorta əlaqələrinin formalaşdırılması və ortaq sığorta hovuzunun yaradılmasıdır.

Sevindirici haldır ki, Birliyin əhəmiyyəti qısa zamanda beynəlxalq təşkilatların diqqətini çəkdi və Türk Dövlətləri Təşkilatı (TDT) Türk Dünyası Sığorta Birliyini öz himayəsinə almaqla bağlı qərar verdi. Hazırda bu istiqamətdə iş aparılır və Birlik TDT formatında yenidən təşkil olunur. Belə ki, Şimali Kipr Sığorta və Təkrarsığorta Birliyi, Macarıstan Sığortaçılar Assosiasiyası və Türkmənistan Dövlət Sığorta Təşkilatı ilə danışıqlar aparılıb, müvafiq təşkilatların Türk Dünyası Sığorta Birliyinə müşahidəçi təşkilat olmaqları ilə bağlı ilkin razılıq alınıb. Habelə ötən dövr ərzində Azərbaycan Sığortaçılar Assosiasiyası tərəfindən Birliyin "Yol xəritəsi" hazırlanıb və üzv dövlətlərin təşkilatları tərəfindən bəyənilərək yüksək qiymətləndirilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Bizim ailəmiz Türk dünyasıdır!". Çox sevinirik ki, sığorta sənayesi olaraq biz də bu ailənin bir parçasıyıq.

Türk Dünyası Sığorta Birliyinin təsisçilərini, habelə təmsilçi ölkələrin sığortaçılarını – ümumilikdə türk dünyasını bu münasibətlə ürəkdən təbrik edir, uğurlar arzulayırıq.

## "Atəşgah" Sığorta Şirkəti ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***38 097 AZN***







## "Azsığorta" ASC

*Sığorta növü: DƏİS və DƏİMMİS*
*Sığorta hadisəsi: Yanğın*
*Sığorta məbləği:* ***25 000 AZN***

## "İpək Yolu Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***6 320 AZN***





## "Qala Həyat Sığorta" ASC

*Sığorta növü: İBHİS*
*Sığorta hadisəsi: Sığorta olunanın vəfat etməsi*
*Sığorta məbləği:* ***40 895,96 AZN***

"Qala Sığorta" ASC



*Sığorta növü: Nəqliyyat vasitələrinin tam sığortası*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***12 211 AZN***



"Meqa Həyat Sığorta" ASC

*Sığorta növü: İBHİS*
*Sığorta hadisəsi: Sığorta olunanın vəfat etməsi*
*Sığorta məbləği:* ***30 939,88 AZN***

"Meqa Sığorta" ASC



*Sığorta növü: AVSMMİS*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***6 750 AZN***

## “Qala Sığorta” şirkətinin baş sponsorluğu ilə “ASAN Məktub” yaz düşərgəsi təşkil olunub

“ASAN Könüllüləri” Təşkilatının təşkilatçılığı, “Qala Sığorta” ASC-nin baş sponsorluğu ilə 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunan “ASAN Məktub” yaz düşərgəsi həyata keçirilib. Mətbuat xidmətindən verilən məlumata görə, düşərgədə 1, 2 və 3 saylı Uşaq evi sosial xidmət müəssisələrindən 8-14 yaş kateqoriyasında olan 70 uşaq iştirak edib.

“Sevinc paylaşdıqca çoxalır” şüarı ilə həyata keçirilən layihənin məqsədi həssas qrupa aid uşaqların bacarıqlarını inkişaf etdirmək, onların cəmiyyətə adaptasiya olmalarını təmin etməkdir.

Qala Sığorta şirkətinin də əməkdaşlarının qatıldığı, mayın 28-dən 31-dək Şamaxı rayonunda icra edilən layihə çərçivəsində uşaqlar üçün öyrədici təlimlər, teatr tamaşaları, müxtəlif mövzularda maarifləndirici görüşlər, psixoloqların iştirakı ilə konsultasiyalar keçirilib.

3 gün ərzində “İdeya generasiyası” mövzusunda interaktiv müzakirələr təşkil olunub, animasiyalar izlənib və kiçik yaşlı uşaqlarla sual-cavab paneli aparılıb. Həmçinin 28 May - Müstəqillik Günü ilə əlaqədar olar “Əsgərə Məktub” proqramı çərçivəsində məktublar yazılıb. Düşərgənin son günündə Qala Sığorta şirkətinin əməkdaşları düşərgə iştirakçıları ilə birlikdə “Axtar tap” intelektual oyununda iştirak edib, bağlanış mərasimində iştirakçıları müxtəlif hədiyyələr ilə sevindiriblər.

“ASAN Məktub - Yaz Düşərgəsi” boyunca uşaqlar əyləncəli və interaktiv vaxt keçirməklə yanaşı, sosial və yaradıcılıq bacarıqlarını da inkişaf etdiriblər.

Cəmiyyətimizin müxtəlif yaş qruplarını hədəf alan, sosial aktivliyə, inkişafa, birliyə yönəlik layihələrin keçirilməsinə xüsusi dəyər verən “Qala Sığorta” ASC memoranduma əsasən bu istiqamətdə fəaliyyətini daha da genişləndirməyi planlaşdırır.

## “Meqa Həyat Sığorta” şirkəti öz əməkdaşları üçün olimpiada təşkil edib

"Təlim və Təcrübə" proqramını müvəffəqiyyətlə bitirən iştirakçılar arasında “Sığorta Olimpiadası” baş tutdu.



Olimpiadanın məqsədi şirkətə yeni qoşulan sığorta agentlərinin və əməkdaşların bilik və bacarıqlarını nümayiş etdirilməsi, həmfikir insanların əhatəsində vaxtın keçirilməsindən ibarət olub. Olimpiadanın yekununda qaliblər sertifikat və dəyərli hədiyyələrlə, bütün iştirakçılar isə sertifikatlarla təltif edilib.

AZƏRBAYCAN
**SIĞORTAÇILAR**
ASSOSİASİYASI

Index: AZ1000, Baku, Azerbaijan
Ünvan: İçəri şəhər, Sabir küç. 3
Tel\fax: (+994 12) 492 80 45
E-mail:office@asa.az

www.asa.az